# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**“PARÇALARIN BƏDİİ TƏRTİBATI” fənni üzrə**

**İŞÇİ TƏDRIS PROQRAMI**

**(Sillabus)**

**Əsas dərslik və dərs vəsaitləri**


1. Paşayev B.S., Ağamalıyeva Y.Ç., Məmmədova L.H. Moda və kostyumun tarixi. Bakı, Azərnəşr, 2009
2. Paşayev B.S. Parça və geyim məmulatlarının bədii layihələndirilməs Bakı, "Təhsil" NPM, 2004
3. Керимов Л.Г. Азербайджанский ковер. Том II - Баку: Гянджлик, 1983 - с.241, 32 цв. ил,
4. Мерцалова М.Н. История костюма разных времен и народов: В 4-х т. – издание 2-е. – М.: Академия Моды, 1993 – 2000.
5. Паранюшкин Р. В. Композиция, М.: Издательство: Феникс Серия, 2005
6. Şəbəkə materialları
7. Цветкова Н. История текстильного искусства и костюма. Древний мир. Учебное пособие М.: Изд. СПбКО, 2010


Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**Fənnin təsviri**

Bu fənn, ümumi (seçmə) fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrdə gələcək peşəkar dizayner yaradıcılıqları zamanı onlara lazım olan zəruri baza biliklərini təqdim edir, habelə onlar bədii parçanın yaranma tarixindən, batika, tikmə, pilə və s. kimi tərtibat üsullarından məlumat əldə edirlər.

Dərslərdə verilən tapşırıqların yerinə yetirilməsi mühazirə dərslərində tədqiq olunan tədris materialların möhkəmləndirilməsinə və tələbələrin bacarıqlarını artırmağa imkan yaradır. Batik dekorativ sənət sahəsində aparıcı yer tutaraq, suluboya, qrafika, vitray, mozaika kimi ənənəvi bədii texnikaların xüsusiyyətlərini birləşdirir və parça üzərində rəsm üsulu olaraq, dizayn sahəsində geniş şəkildə istifadə olunur, müxtəlif üslub və rəngli həllər ilə mükəmməl birləşərək eksklyuziv parçaların yaranmasına imkan verir.

**Fənnin məqsədi və vəzifələri**

"Parçaların bədii tərtibatı" tədris fənni üzrə kurs bədii təfəkkürün, yaradıcı təxəyyülün, təsviri səriştə və bacarıqların inkişaf etdirilməsinə yönəlib. Hazırki kursda nəzərdə tutulmuş mühazirə və məşğələlərin vəzifəsi təsviri incəsənətin və bədii yaradıcılığın nəzəri əsaslarının başlıca anlayışları ilə rəngin simvolik mənası məsələlərinin, emosional təsirin forma və imkanları ilə bağlılığını, eləcə də parça üzərində naxışların çəkilməsinin ənənəvi üsularını tələbələrə aşılamaqdan ibarətdir. Beləliklə, əldə olunmuş biliklər əsasında xarakterik elementləri nəzərdən

keçirmək və üzə çıxarmaq, böyük tarixi yol keçmiş ənənlərə uyğun parçaların üzərində bədii naxışvurmanı tətbiq etmək məqsədilə dekorativ kompozisiyanı yerinə yetirməyə şərait yaradır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Dekorativ kompozisiyanın şərti dili vasitəsilə tələbələrdə yaradıcı niyyəti ifadə etmək qabiliyyətinin inkişaf etdirilməsi;
- Nəzəri bilikləri peşə yaradıcılığı üsuluna müstəqil surətə çevirmək bacarığı;
- Estetik dünyagörüşünün inkişaf etdirilməsi və bədii zövqün tərbiyə olunması;
- Bədii-coğrafi bacarıqların və səriştələrin inkişaf etdirilməsi;
- Dekorativ-tətbiqi yaradıcılıq sahəsində (batik) işin xüsusiyyətləri ilə tanışlı;
- Fantaziyanın, yaradıcı təfəkkürün, təxəyyülün, fəza mənimsənilməsinin inkişaf etdirilməsi;
- Bədii yaradıcılığın bəzi təşkiledici səriştələrin əldə olunması;
- Yerli və xarici bədii mədəniyyət haqqında məlumatların əldə olunması;
- Tələbələrin dizayn sahəsində bacarıqlı və savadlı mütəxəssis kimi yetişdirməsi.

**<u>Fənnin tədris metodologiyası</u>**

Qarşıya qoyulmuş məqsəd və nailiyyətləri əldə etmək üçün aşağıdakı tədris metodologiyasından istifadə olunur:

- *Şifahi (mühazirə, təqdimat, müzakirə);*
- *Əyani (video fayllar,reproduksiyalar, kitablar );*
- *Təcrübi;*
- *Emosional (müxtəlif assosiasiyaların, bədii obrazların təhlili).*

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, xüsusi naxış nümunələrin öyrənilməsi və təhlili, təqdimat hazırlanması, esse yaxud sərbəst işlərin yazılması, ev tapşırıqlarının ( sketç-nabroskaların) yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**<u>Öyrənmənin nəticələri</u>:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**<u>Bilməlidirlər:</u>**

- Təsviri incəsənətin və bədii yaradıcılığın nəzəri əsaslarını;

- Dekorativ kompozisiyanın məqsəd və vəzifələrini, əsas qanunlarını, ifadəli vasitələrini;
- Dekorativ kompozisiyanın təşkilediciliyinin əsas prinsiplərini;
- Rənglərin xüsusiyyətlərini və rəng harmoniyaların yaradılması variantlarını;
- Dekorativ kompozisiyada üslublaşmanın əsaslarını və batik üçün işlənib hazırlanması prosesinin xüsusiyyətlərini;
- Məmulatın dekor edilməsinin yaradıcı layihəsinin ideya və niyyətindən başlayaraq onun yerinə yetirilməsinə qədər dekorativ kompozisiyanın yaradılması ardıcıllığını;
- Parça üzərində naxışvurma prosesinin əsas mərhələlərini.

**Bacarmalıdırlar**:

- Naxışvurmanın müxtəlif növləri üçün eskizləri yaratmağı;
- Parça üzərində naxışvurmanın ənənəvi üsullarını istifadə etməyi;
- Naxışvurmanı yerinə yetirməyi və müxtəlif texnikalardan istifadə etməyi;
- Məkanın təşkiledicilik qanunlarını tətbiq etməyi;
- Əlavə ədəbiyyatla işləməyi;
- Ustaların işlərini təhlil etməyi və öz işlərində dekorun ayrı-ayrı elementlərini istifadə etməyi; məmulatların üzərində naxışvurmanın yerinə yetirilməsi üzərində yaradıcı işləməyi;
- Bədii materiallardan və alətlərdən (boyalardan, qrafik materiallardan, parça üçün boyaq maddələrdən) istifadə etməyi;
- Fakturanı çatdırmağı, dekor etməyi, mürəkkəb ornamentlər yaratmağı;
- Niyyətin ifadə vasitələrini şüurlu olaraq seçməyi;
- Tapşırıqları yerinə yetirərkən həyat müşahidəçiliyi və fantaziyanı aktivləşdirməyi;
- Kompozisiya qanunlarını nəzərə almaq şərtilə kompozisiyaları tərtib etməyi;
- Harmonik rəng qammasını seçməyi.

Nəhayət, malik olmalıdırlar:

- Dekorativ rəsmin təsviri dil üsullarına;
- Koloristikanın üsullarına;
- Materialda işlərin yerinə yetirilməsi üsularına.
- Bədii tərtibat sahəsinin bilik və bacarıqlarından istifadə edərək parça üzərində düzgün quruluş və görünüşə malik kompozisiyalar qurmağı bacarmalıdırlar.

**Prerekvizitlər**

Yoxdur.

**Fənnin mühazirə mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Qədim Dünya ölkələrində tekstilin inkişaf tarixi
2. Tekstildə ornament
3. Parçanın bədii tərtibatının yaranma və inkişaf tarixi. Batik
4. Batikın texnikaları
5. İnteryerin tekstil tərtibatı
6. İkat. İkatın yaranması
7. Dekorativ tekstildə kolorit
8. Dekorativ tekstildə kompozisiya
9. Naxış tikmə sənətinin tarixi
10. Naxış tikmə növləri
11. Naxış tikmə texnikaları
12. Hindistan naxış tikmələri
13. Çin naxış tikmələri
14. Azərbaycan tikmələri
15. Maşınla naxış tikmə tarixi

**Fənnin məşğələ mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda məşğələlər təqdim ediləcək:

1. Sərbəst kompozisiya. “Dekorativ parça”. Parçanın rəsmlə tərtibatı. Soyuq qamma
2. Kompozisiya. “Payızın rəngləri”. Parça üzərində rəsm. Eskiz
3. Kompozisiya. “Payızın rəngləri”. Parça üzərində rəsm. Parça üzərində iş
4. Soyuq batik. Kompozisiya.”Çiçəklər və kəpənəklər”. “Çiçəklərin valsı”. Parça üzərində rəsm. Eskiz
5. Soyuq batik. Kompozisiya.”Çiçəklər və kəpənəklər”. “Çiçəklərin valsı”. Parça üzərində rəsm. Parça üzərində iş
6. Qrafik kompozisiya. “Balıqqulağı və dəniz daşları”. Parça üzərində rəsm. Eskiz
7. Qrafik kompozisiya. “Balıqqulağı və dəniz daşları”. Parça üzərində rəsm. Parça üzərində iş
8. Kompozisiya. “Şaxta naxışları”. Parça üzərində sərbəst rəsm. Eskiz
9. Kompozisiya. “Şaxta naxışları”. Parça üzərində sərbəst rəsm. Parça üzərində iş
10. Düyünlu texnika. Yaylığın tərtibatı. Eskiz
11. Düyünlu texnika. Yaylığın tərtibatı. Parça üzərində iş
12. Stilizə elementlərindən ibarət təbiət formalarının təsviri. Tikmə. Eskiz
13. Stilizə elementlərindən ibarət təbiət formalarının təsviri. Tikmə. Parça üzərində iş
14. Muncuqlarla tikmə. Sərbəst mövzu. Eskiz
15. Muncuqlarla tikmə. Sərbəst mövzu. Parça üzərində iş

**Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda elektron kabinetdə yerləşdirilir.

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| **Həftə** | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1 | Qədim Dünya ölkələrində tekstilin inkişaf tarixi | Qədim Misirdə toxuculuq və boyalar üçün istifadə olunan əsas xammal. Misir bəzəyi. Qədim Yunanıstan parçaları. Yunan ornamentinin elementləri. Bəzək əşyalarının elementlərinin rənglənməsi. Qədim Roma parçaları və bəzəklər üçün istifadə edilən parça növləri. Qədim Hindistanın tekstili. Benaress parça növləri (Hindistan). "İqat" toxuculuq maşınları. Qədim Çinin tekstili (toxuma malları). Çin ornamentinin əsas növləri. | 1 (fəsil 2);<br>4 (fəsil 1)<br>2 (fəsil 1)<br>7 (fəsil 2,4,6,7); |
| 2 | Tekstildə ornament | Ornament anlayışı və ornament motivləri. Kompozisiyanın strukturundan asılı olaraq, həndəsi ornamentlərin növləri. Təsviri ornamentlərin növlərə bölünməsi. Təsviri motivlərin və onların elementlərinin miqyasına görə növləri. "Simmertiya" və onun xüsusiyyətləri. | 2 (fəsil 3,5,6)<br>3 (fəsil 3);<br>5 (fəsil 1); |
| 3 | Parçanın bədii tərtibatının yaranma və inkişaf tarixi. Batik | "Batik" sənətinin tarixi. Çantinq vasitəsilə parça üzərində yaradılan naxışvurma üsulu və istifadə olunan boyaq maddələri. Java ornament növləri. Çində ipək parçalar üzərində naxışların yaradılması. Yaponiyada parçanın bəzədilməsi texnologiyalarının xüsusiyyətləri. Hindistanda parça boyama sənəti. | 1 (fəsil 2.6);<br>2 (fəsil 3,4,5)<br>7 (fəsil 7,8,9) |
| 4 | Batikın texnikaları | Soyuq batikin texnologiyası. İsti batik texnologiyası. İsti batik texnologiyası ilə naxış çəkmə üsulları. Ləkə ilə naxışların çəkilməsi. Quru boyaq maddələri ilə səpilmə texnikası. Sərbəst naxışçəkmə texnikası. | 4 (fəsil 1);<br>6 (şəbəkə mat.)<br>7 (fəsil 7,9); |
| 5 | İnteryerin tekstil ilə | Tekstilin tarixi. Kətan və yun lifi. Pambıq və | 2 (fəsil 1); |

| | | | |
|---|---|---|---|
| | tərtibatı | ipək lifi. İnteryerin tərtibatında əsas element - dekorativ panno. Müxtəlif təyinatlı interyerlər üçün dekorativ parçaların istifadəsinin müasir 3 əsas üsulu. | 3 (fəsil 6);<br>7 (fəsil 4,8)<br>6 (şəbəkə mat.) |
| 6 | İkat. İkatın yaranması | “İkat” anlayışı. İkatın yaranma tarixi. İkatın yaranma texnikası. Orta Asiya ikatının tarixi. “Abr” üsulu ilə rəngləmə. | 6 (şəbəkə mat.)<br>7 (fəsil 7,8,9); |
| 7 | Dekorativ tekstildə kolorit | Dekorativ parça kompozisiyasında koloritin rolu. Xromotik və axromatik rənglər. Spektr. Rəng çevrəsi və əlavə rənglər. Rənglərin qarışığının əldə edilməsinin 3 üsulu. Rənglərin eyni zamanda baş verən kontrastı (təzadı). Tekstildə koloriti. | 1 (fəsil );<br>2 (fəsil 7)<br>7 (fəsil 8); |
| 8 | Dekorativ tekstildə kompozisiya | DTS əsərinin kompozisiya həllində ritmin əhəmiyyəti. Parça rəsmlərinin ritmik qurulma üsulları. Statik və dinamik kompozisiya həlli. Kompozisiya həllinin seçilməsinə təsir edən müxtəlif faktorlar: material, rəng seçimi, miqyas, rəsmin təkmilləşdirilmiş üsulları. Parça istehsalında tematik ornamental kompozisiyalar. | 5 (fəsil 1.3);<br>2 (fəsil 4); |
| 9 | Naxıştikmə sənətinin tarixi | Qədim Dünya tikmə sənətinin tarixi. Misir tikmə sənəti. Bizans tikmə sənəti.<br>İntibah dövrü tikmə sənəti. Qərb ölkələrində tikmə sənəti. Tikmələrdə naxışların mənəvi xarakteristikaları. Rusiyada tətbiq edilən ən qədim tikmə növləri. Qızılı tikmə. SNQ ölkələrində tikmə sənəti. | 1 (fəsil 2);<br>4 (tom 1)<br>7 (fəsil 2, 3); |
| 10 | Naxış tikmə növləri | Lentlərlə naxış tikmənin yaranma tarixi və növləri. Muncuqla naxış tikmə və əsas | 1 (fəsil 4);<br>4 (tom 2) |

| | | | |
|---|---|---|---|
| | | üsulları. "Monastır" tikişi. "Sətri" tikişi. "Saplaqlı" tikiş. "Tağşəkilli" tikiş. Rişelye tikmə naxışları. Unudulmuş "barcello" texnikası. Lünevil tikmə naxışların yaranma tarixi. | |
| 11 | Naxıştikmə texnikaları | Sıx naxıştikmə. Sıx naxıştikmənin növləri. Xaçla naxıştikmə. Kanva. Naxıştikmə texnikaların növləri. | 4 (tom1, 2);<br>2 (fəsil 5) |
| 12 | Hindistan naxış tikmələri | Hindistan naxış tikmələrinin ənənələri. Şişa naxış tikmə üslubu. Chikankari naxış tikmə üslubu. Kantxa naxış tikmə üslubu. Zardozi naxış tikmə üslubu. | 1 (fəsil 2.6);<br>7 (fəsil 7) |
| 13 | Çin naxış tikmələri | Çin tikmə naxışlarının tarixi. Çin tikmə naxışların üslubları. "Su" və "Şu" tikmə naxışları. Syan və Yue tikmə naxışları. Tsyao Qu tikmə naxışları. Sıçuan tikmə naxışları. | 1 (fəsil 2.4);<br>7 (fəsil 8) |
| 14- | Azərbaycan tikmələri | Azərbaycanda məişət əşyalarında tətbiq olunan milli dekor kompozisiyaları. Güləbətin tikmə texnikası. Təkəlduz tikmə texnikası. XIX əsrin ortalarında yayılmış güləbətin və təkəlduz tikmə üslublu ornamentlər. Piləkli tikmə. Qondarma tikmə. Azərbaycan tikmələrində istifadə edilən onamentlər. İslimi ornamenti. Buta ornamenti. | 1 (fəsil 2);<br>2 (fəsil 1.5)<br>3 (fəsil 3); |

| | | | |
|---|---|---|---|
| 15 | Maşınla naxış tikmə tarixi | Naxış tikmə maşınların tarixi. Heylemanın naxış tikən maşını. Schiffli naxış tikən maşını. Maşın tikmə naxışlarının 5 əsas üslubu. | 2 (fəsil 2.4)<br>4 (fəsil 4); |
| | Yekun imtahan | | |

**Cari qiymətləndirmə**

Dizayn ixtisasıda qabiliyyət tələb edən fənlər üzrə cari qiymətləndirmədə - 50 balın 20 balı tələbələrin aktivlik balı (seminar məşğələləri zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay ərzində 2 iş olmaqla) üzrə Əlavədə qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Bu halda əlavə bal almaq istəyən tələbələr tərəfindən 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir.

Qabiliyyət tələb edən fənlər (dizayn ixtisasında) üzrə fərdi iştapşırıqlarının yerinə yetirilməsi

Tələbələrə sillabus üzrə mövzulara uyğun olaraq 6 fərdi iş tapşırılır. Verilən tapşırıqların işləmə qaydaları aşağıdakı kimi müəyyən edilir:

1. Kompanovka - ən əsas və vacib şərt - çəkiləcək əşyaların və yaxud kompozisiyanın vərəqdə düzgün yerləşdirilməsi;
2. Proporsiyaların düzgün təyin edilməsi;
3. Köməkçi xətlərdən istifadə edərək formanın qurulması;
4. Perspektiva qanunlarına uyğun tapşırığın konstruktiv həlli;
5. Kompozisiya qanunlarına riayət edərək tapşırığın tam olaraq konstruktiv həlli;
6. Rəng palitrasının müəyyənləşdirilməsi;
7. Predmetlərin formasının, həcminin və yaxud hər hansı bir kompozisiyanın rənglə işlənməsi.

7.1. Kompozisiyanın (ornamental, tematik, qrafik, dekorativ və s.) rəng həlli:

7.1.1. Əsas rəng tonlarının verilməsi;

7.1.2. Ornamental kompozisiyaların tapşırıqdan asılı olaraq simmetriyaqanunlarına riayət edərək xromatik və axromatk yaxud çalarlarla işlənilməsi;

7.1.3. Dekorativ tapşırıqların xromatik çalarlarla işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

7.1.4. Qrafik işlərin xromatik və yaxud axromatk çalarlarla qrafik üslubda işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

7.1.5. Tematik tapşırıqların qrizayl (monoxrom) və yaxud xromatik çalarlarla işlənilməsi;

7.1.6. Tapşırığın ümumiləşdirilməsi.

**Tapşırıqların yerinə yetirilməsində istifadə olunan material və texnikalar:**

1. A3, A2 formatında kağız və yaxud kətan;
2. Sadə qələm, rəngli qələm, rəngli gel qələm, flomaster, rəngli marker, pastel, kömür, sangina, sulu (akvarel, akril, quaş və s.) boya, yağlı boya.

Qarışıq texnikadan istifadə etmək imkanları mövcuddur.

**Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**Dərsə davamiyyət**

Bakalavriat səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**Aralıq qiymətləndirilmə**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları Aralıq qiymətləndirmə üzrə 50 bal qabiliyyət imtahanı kimi 180 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı çəkilən 1 rəsmin qiymətləndirilməsi hesabına təmin edilir. İmtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir. Tələbə iştirak etmədikdə "0" (sıfır) bal qeyd olunur. Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya komissiyasına müraciət edə bilər.

**Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə (final) | 50 | 50 % |
| Seminar (məşğələ) dərslərin nəticələrinə görə aktivlik | 20 | 20 % |
| Tələbələrin fərdi işin qiymətləndirilməsinə görə | 30 | 30% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | - "qeyri-kafi" | – **F** |
| 51-60 bal | - "qənaətbəxş" | – **E** |
| 61-70 bal | - "kafi" | – **D** |
| 71-80 bal | - "yaxşı" | – **C** |
| 81-90 bal | - "çox yaxşı" | – **B** |
| 91-100 bal | - "əla" | – **A** |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.